Türküstan.- 2020.- 25-30 avqust.- S.21.



**Məhərrəm Firudinoğlu**

# Gəl

*(Şair Oktay Abdullaya)*

Şair dostum, bu yerləri gəzməyə,
Çaylarında, göllərində üzməyə.
Şeir çələnginə inci düzməyə,
Bir gəlmişdin, fürsət düşsə, bir də gəl.

Təbiətin sirli-sirli oynu var,
Cığırları, talaları göz oxşar.
Yal-yamacı zənbur çiçək, füsunkar,
Çay kənarı bardaş quraq yerdə, gəl.

Var Qoşqarın aramızda hörməti,
Ürək geniş, süfrəsində neməti.
Saz əlində, şirin-şirin söhbəti,
Tab gətirmir barmaqlara pərdə, gəl.

Dərd həmdəmim, dərd sirdaşım, qınama,
Tanınmışam, tanımırsan, tanıma.
Bir gələydin, baş çəkəydin halıma,
Mən çəkəni çəkə bilməz nər də, gəl.

Ayrı düşdüm mahalımdan, elimdən,
Qurtulmadıq qəm-qəhərdən, zülümdən,
Cana gəldik nakəslərin felindən,
Arxasıza gəl arxa ol mərdə, gəl.

«Vurğunun, Müşfiqin, Şəhriyarın var»,
«Məmməd Arazın var, Bəxtiyarın var»,
İçində bir yanğı, intizarın var,
Üz Arazda, ax Arazda, Kürdə gəl.

Qaçqın Məhərrəməm fani dünyada,
Möhtac oldum ocağa da, oda da.
Əlim çatmır nə qohuma, nə yada,
Əlac elə, bu həsrətə dərdə gəl.